

# TARİXİN QAN YADDAŞI

## 20 Yanvar faciəsindən 28 il keçir








# Bu həm də şanlı tarixdir...

O qanlı-qadalı 20 Yanvar gecəsindən 28 il keçir. Yaşlı və orta nəsil həmin gecədə, ərəfədə və sonrakı günlərdə baş verənləri sanki dünən olubmuş kimi xatırlayır. Çünki bu, unudulacaq, yaddaşlardan silinəcək bir olay deyil...

Düşündürücüdür ki, gənclərimiz də, hətta məktəbyaşlı uşaqlar da 20 Yanvar barədə az qala canlı şahidlər kimi danışırlar. Bu da bizlərin - onların valideynlərinin, nənəbabalarının xatirələrə, bədii əsərlərə, rəsmlərə çevrilmiş acı təəssüratlarının yeni nəsillərə bacarıqla çatdırılmasının nəticəsidir.



Lakin 20 Yanvar təkcə ağrı-acı ilə xatırlanmır. Bu, xalqımızın azadlıq, istiqlal mübarizəsinin unudulmaz bir səhifəsidir. Vətənimizə, insanlarımıza qarşı edilən ədalətsizliyin, yağdırılan böhtanların, törədilən vəhşiliyin tarixə yazılan salnamələrindən biridir. Bunu yaddan çıxarmaq olmaz və yaddan heç vaxt çıxmır da!

İki-üç gündən sonra yenidən Şəhidlər xiyabanına axışacağıq. Ürəyi ülvi azadlıq arzusu, müstəqillik diləyi ilə çırpınarkən üstünə namərd gülləsi tuşlanan, nahaq qanları axıdılan günahsızları yad etmək, tariximizin qanlı, lakin şanlı səhifələrini yenidən vərəqləmək üçün. Bu sırada Azərbaycanın gəncləri, böyüməkdə olan balalarımız da addımlayacaq.

*"Azərbaycan"*
***Ağaəli MƏMMƏDOV (foto)***

